# Yandırdığınız alov, cəhənnəm alovunun yetmiş qatından bir qatıdır

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: Yandırdığınız alov, cəhənnəm alovunun yetmiş qatından bir qatıdır Deyildi ki, Ey Allahın Rəsulu, hətta bu alov belə (zalımları cəzalandırmağa) yetərli idi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Cəhənnəm alovu dünya alovundan altmış doqquz qat üstün edildi. Hər bir qatın istiliyi, dünya alovunun istiliyi qədərdir".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) dünya alovunun, cəhənnəm odundan yetmişdə bir qatı qədər olduğunu bəyan etmişdir. Axirət alovu dünya alovundan altmış doqquz qat istidir. Hər bir qatın istiliyi dünya alovunun istiliyinə bərabərdir. Deyilir: Ey Allahın Rəsulu, dünya alovu ora daxil olanların əzab edilməsi üçün kifayət idi. Və Allah rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun): Cəhənnəm odu dünya alovundan altmış doqquz qat üstün edildi. Hər bir qatın istiliyi, dünya alovunun istiliyi qədərdir.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee